**S.A.QURBANOVA**
*e-mail: sebine.qurbanova54gmail.com*

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., H.Əliyev pr., 429)

# KLASSİK PEDAQOQLAR TOLERANTLIQ HAQQINDA

***Açar sözlər:*** *tolerantlıq, tolerant dünyagörüş, millətlərarası münaqişə, tolerantlığın əsasları, tolerantlıq mühiti, çoxmillətli kollektiv*

***Ключевые слова:*** *толерантность, толерантное мировоззрение, межнациональный конфликт, основы толерантности, толерантная среда, многонациональный коллектив.*

***Key words:*** *tolerance, tolerant worldview, interethnic conflict, basics of tolerance, environment of tolerance, multinational collective.*

Ümumbəşəri və milli dəyərlərə əsaslanan tərbiyə yalnız pedaqoji problem kimi deyil – həm də cəmiyyətin inkişaf problemi baxımından həyati əhəmiyyət kəsb edir. Şəxsiyyətin mühüm dəyərlərinin təməli təlim-tərbiyə prosesinin ilkin mərhələsində qoyulduğundan, məhz bu problemin həlli məktəbəqədər tərbiyə müəssisələrində tolerantlığın formalaşması üçün xüsusi təşkil olunmuş prosesdən kənarda qala bilməz. Bir çox beynəlxalq, həm də respublikamızda qəbul edilən dövlət səviyyəli bəyannamə və hüquqi-normativ sənədlərdə tolerantlığın müxtəlif növlərinin tərbiyə olunmasının vacibliyi, tolerantlığın formalaşdırılması üçün siyasi, sosial və pedaqoji mühitin yaradılması məsələləri təsbit olunmuşdur Avropa İttifaqı rəsmi olaraq çoxmədəniyyətlilik (multikultural) tərbiyəni əsas kurs elan etmiş, millətlərarası təşkilatlar isə təhsildə bu istiqaməti dəstəkləyəcək sənədlər paketi qəbul etmişdilər.

Qərbi Avropa və ABŞ-da bu günə qədər tolerantlıq tərbiyəsi məsələlərinə müxtəlif xalqların və mədəniyyətlərin nümayəndələrinin əməkdaşlığı və birgə əlaqəsi üçün yeganə əsas kimi çıxış edən multikulturalizm çərçivəsində baxılır.

Multikulturalizm tədris proqramlarını müxtəlif etnik qruplardan olan uşaqların birgə təhsili, həm də digər mədəniyyət və ənənələrə hörmətlə yanaşmaq tələbinə uyğun qurmağı nəzərdə tutur.

Multikulturalizm hər şeydən bütün dünyada və ya ayrılıqda götürülmüş bir ölkədə müxtəlif mədəniyyətliliyin qorunub saxlanılmasına və inkişaf etdirilməsinə yönəlməlidir. Bu, tolerantlığın paralel mədəniyyətlərin mövcud olması tələbinə yönəlmiş aspektlərindən biridir. Əsasən multikulturalizm ideyası ümumi avropa mədəniyyəti məkanına müxtəlif ölkə immiqrantlarının mədəniyyət elementlərinin qoşulmasını nəzərdə tutan avropa cəmiyyətində irəliliyir.

Dözümlülük anlayışı “Yeni dövr” mərhələsində meydana gəlmişdir. İlk öncə o, dini və siyasi dözümlülük prinsipləri ilə bağlı olmuş, sonralar daha da genişlənərək müxtəlif aspektləri özündə cəm etməklə, tədricən hazırda bəlli olan tolerantlıq anlayışının dərk olunmasına gətirib çıxarmışdır. Elmi-nöqteyi nəzərdən tolerantlığı başa düşüb, dərk etməyin başlanğıc nöqtəsi XVII əsrə məxsusdur. Məhz bu yüzilliklərdən başlayan “Yeni dövrdə” sonrakı əsrlərdə Avropa təfəkkürünü müəyyənləşdirəcək əsas aparıcı ideyalar formalaşmağa başlayır. Tarixən qısa bir müddət ərzində insana olan baxışlar köklü surətdə yenidən nəzərdən keçirilir ki, bu da öz növbəsində sonrakı yüzilliklərdə empirik təbii biliklərin inkişafına təkan verir. Müzakirə olunan məsələlərin dairəsi genişləndi, hətta bu və ya digər elm sahəsinə aid fənnin maraq dairəsi ilə birbaşa bağlı olmayan bir çox məsələlər də diskussiyaların predmetinə çevrildi. Məhz o dövrdə alimlər tərəfindən əxlaq məsələləri şəxsiyyətlərarası münasibətlərlə, digər xalqların, dinlərin və mədəniyyətlərin nümayəndələrinə qarşı dözümlülük münasibətləri ilə, həmçinin tolerantlıq münasibətləri ilə sıx əlaqəli şəkildə müzakirə olunmağa başladı. Bu mənada deyə bilərik ki, pedaqogikanın inkişafı ən erkən çağlardan başlayaraq əxlaq problemləri

və tolerantlıq münasibətlərinin dərk edilməsi ilə sıx bağlı olduğundan onun kökləri “Yeni dövrün” dahi pedaqoqlarının elmi irsində gizlənmişdir.

İntibah dövrünün fəlsəfəsində humanist pedaqoji ideyalar səslənilir (Avropada Vitterina de Feltre, Fransua Rable, Mişel de Monten, Yaxın Şərqdə, o cümlədən Azərbaycanda İmadəddin Nəsimi, Əssar Təbrizi, Əvhədi Marağai, Şah İsmayıl Xətai və b.), insan şəxsiyyətinin hərtərəfli olması vurğulanırdı. Qeyd etmək vacibdir ki, milli, dini və sosial mənşəyindən asılı olmayaraq, insanın vahid təbiətinin tanınması çox zaman əmək tərbiyəsinin gedişində üzə çıxarılmış və əsaslandırılmışdır. Buna görə də İntibah və Yeni dövrün bir çox sosial-fəlsəfi konsepsiyaları pedaqoji sistem və konsepsiyaların yaranmasının əsası oldu. Belə ki, XVIII əsrin humanisti, yazıçısı və siyasətçisi Tomas Morun utopik sosializmi (işgəncəli ölümünə görə XX əsrdə katolik kilsə tərəfindən şəhidlərin sırasına daxil edilmişdir) ümumi icbari təhsil və əmək tərbiyəsi konsepsiyasının meydana gəlməsinin əsası oldu. Bunun ardınca eyni ilə F. Bekonun sensualist fəlsəfəsi əyani təlimin əsasına çevrildi.

Digər insanlara hörmət və dözümlü münasibəti özündə cəmləşdirən əxlaq haqqında düşüncələrə Y.A. Komenskinin pedaqoji irsində (1) daha çox diqqət ayrılmışdır. Böyük didakt, pedaqogika elminin “atası”, XVII əsrin nümayəndəsi əxlaqın on altı qaydasını irəli sürərək, onu əxlaq tərbiyəsinin incəsənəti adlandırmışdır. Y.A. Komenski uşaq şəxsiyyətinin formalaşması məsələsinə üstünlük verərək, “incəsənəti həqiqi şəkildə tətbiq etməyi”, məktəbləri isə adlandırıldığı kimi “insanlıq emalatxanasına” çevirməyi vacib hesab edirdi (1, s.38-46).

Böyük çex didaktı tərbiyənin vəzifəsini – şəxsiyyətin hərtərəfli inkişafına humanistcəsinə cəhd göstərməyin nəticəsi kimi dərk edirdi. O, zamanlarda hakim olan universal təhsilə cəhd göstərilməsinə uyğun olaraq Y.A. Komenski təlim və tərbiyə məsələlərini bir-birindən ayırmamışdır.

Y.A. Komenskinin ideyaları sonrakı əsrlərdə həm Qərb, həm də Şərq mütəfəkkir və tədqiqatçılar tərəfindən istifadə edilərək, davam etdirilmişdir ki, bu da onun zamansız dəyərə və daima aktuallığına bir daha sübutdur. Rus pedaqogikasında gözlənilmədən, özünəməxsus tərzdə əxlaq tərbiyəsi barədə Komenski ideyaları L.N. Tolstoy tərəfindən (2) inkişaf etdirilmişdir.

Tolstoyun pedaqoji konsepsiyası meydana gəldiyi ərəfədə Komenski ideyaları artıq iki əsrə yaxın idi ki, Rusiyada tanınırdı və böyük Çex pedaqoqunun ideyalarının bir çox orijinal şərhlərini özündə əks etdirirdi. Lakin məhz Tolstoy özünəməxsus inadkarlığı ilə bəşəriyyətin elmi və mədəni nailiyyətlərindən, o cümlədən də Komenskinin “Böyük didaktika”sından istifadə edərək, bütün diqqətini uşağın əxlaq tərbiyəsi məsələlərinə yönəltmişdir.

Komenski və Tolstoy konsepsiyalarının ayrı-ayrı müddəaları arasında ideya və metodologiyaların reallığa çevrilməsi səviyyəsi üzrə daxili, dərin oxşarlıq məhz bundadır. Böyük çex humanistinin ideyaları bunlar idi: ümumi və xüsusi, tam və özəl tərbiyə və inkişafın vəhdəti, ümumi təhsil sistemi və şəxsiyyətin tam, azad, təbii inkişafı, fərdi və sosial inkişafı. Bir sıra konseptual fərqlərin olmasına baxmayaraq bu sıraya tam hüquqla Tolstoyun tolerantlıq, pisliyə zorakılıqla müqavimət göstərməmək və s. kimi “təbliğat” çağırışlarını da daxil etmək olar. Y.A. Komenskiyə görə tərbiyənin məqsədi insanı əbədi həyata hazırlamaqdır. Bunun üçün də insan xarici aləmi dərk etməli, özünü və əşyaları idarəetməyi bacarmalı və daima hər şeyin yaradıcısı olan Allaha cəhd göstərməlidir. L.N. Tolstoya görə isə tərbiyənin məqsədi, uşaqlara əzəldən xas olan yüksək əxlaqi keyfiyyətlərin təbii yolla üzə çıxarılması, həm də onların şüurunun zənginləşdirilməsi prosesidir.

Tolstoyun insan və həyatın mənası haqqında düşüncələri arasında tərbiyə və təhsil məsələləri əsas mərkəzi yer tutur. Müasir tədqiqatçılar böyük yazıçının pedaqoji elm və məktəb haqqında məqalə və yazılarında, deyimlərində tərbiyəyə dair orijinal baxışları özündə əks etdirən, bu günə qədər – XXI əsrin əvvəllərinə kimi öz aktuallığını qoruyub saxlamış ideyalar və yenilikləri üzə çıxarırlar.

Aydındır ki, bəşəriyyətin inkişafı XXI əsrin əvvəllərində yalnız zorakılıqlardan xilas olmaq sayəsində mümkün ola bilər ki, bu isə ilk növbədə böyüyən nəslin tərbiyəsi məsələləri-

nin həllini nəzərdə tutur. Bu işdə incəsənətin tərbiyəedici imkanlarından fəal surətdə istifadə etmədən uğur qazanmaq mümkün deyil, bu fikirlə vaxtilə Y.A. Komenski və L.N. Tolstoy da razı olmuşdular.

Müasir pedaqogika bu nöqteyi-nəzərdən incəsənət üsulları vasitəsilə tolerantlığın əsaslarının formalaşdırılmasına dair vahid konsepsiyaya ehtiyac duyur. Bir halda ki, XXI əsrin əvvəllərində Azərbaycanda da yaranmış sosial vəziyyət millətlərarası münaqişələrlə, məktəbəqədər təhsil müəssisələrində və ümumtəhsil məktəblərində qrupların çoxmillətli tərkibə malik olması ilə xarakterizə olunduğundan, kiçik məktəbyaşlı uşaqlarda tolerantlığın əsaslarının formalaşdırılması ən vacib pedqoji problemlərdən biri hesab olunur.

## Ədəbiyyat

1. Komenski Y.A. Böyük didaktika / Y.A.Komenski // Elmi redaktoru, nəşrə hazırlayan və ön sözün müəllifi prof. F.A.Rüstəmov. – Bakı: Elm və təhsil, – 2012. – 388 s.
2. Толстой Л. Путь жизни / Л.Толстой. – М.: Республика, – 1993. – 431 с.

**С.А.Курбанова**

## Классики педагогики о толерантностьи

***Резюме***

Доказано, с данной точки зрения современная педагогика посредством художественных методов нуждается в единой концепции формирования основ толерантности. Так как, социальная ситуация в Азербайджане в начале XXI века охарактеризована полиэтническими группами в дошкольных и общеобразовательных учреждениях, формирование основ толерантности у детей младшего школьного возраста является одной из важнейших педагогических проблем.

**S.A.Gurbanova**

## Classici pedagogy o tolerance

***Summary***

From this point of view, it is proved that modern pedagogy needs a unified concept of forming the foundations of tolerance through artistic methods. While the social situation in Azerbaijan at the beginning of the XXI century is characterized by interethnic conflicts and the multi-ethnic composition of groups in primary and secondary schools, the formation of the foundations of tolerance in young school-age children is one of the most important pedagogical problems.

*Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev*

*Redaksiyaya daxil olub: 14.04.2022*